

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 217 (21.627)

*17 noyabr 2016-cı il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Noyabrın 16-da Heydər Əliyev Fondunun və AZƏRTAC-ın birgə təşkilatçılığı ilə Bakıda, Heydər Əliyev Mərkəzində Dünya Xəbər Agentliklərinin V Konqresinin, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasının birgə açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı açılış mərasimində nitq söyləyib.

Sonra xatirə şəkli çəkdirilib.

Qısa fasilədən sonra açılış mərasimi çıxışlarla davam edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Dubay Ticarət və Sənaye Palatasının sədri Məcid Saif Al Qurairi qəbul edib.

Görüşdə biznes, turizm, Azərbaycan kənd təsərrüfatı məhsullarının Birləşmiş Ərəb Əmirliklərinə ixrac imkanları, viza rejiminin daha da sadələşdirilməsi, sərmayə qoyuluşu ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Noyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua ilə görüşmüşdür.

Səmimi qəbula görə minnətdarlıq edən Vey Cinhua Naxçıvana səfərinin əhəmiyyətinə toxunmuş, muxtar respublikanın inkişafının məmnunluq doğurduğunu və ikitərəfli əlaqələr üçün geniş perspektivlər açdığını bildirmişdir.

Ali Məclisin Sədri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə səfiri təbrik etmiş, dövlət başçısının Çin Xalq Respublikasına səfərini xatırlatmış, bunun Azərbaycan-Çin əlaqələrinin inkişafına təkan verdiyini qeyd etmişdir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikası arasında rabitə və yeni texnologiyaların tətbiqi sahəsində görülən işləri diqqətə çatdıran Ali Məclisin Sədri gələcək əlaqələrin daha da inkişaf edəcəyinə inamını ifadə etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatının nümayəndə heyəti Naxçıvana səfər edib



Yeni Azərbaycan Partiyasının yaradılmasının 24-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatının nümayəndə heyəti Naxçıvana gəlib.

Qonaqlar əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər. Sonra qonaqlar Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirildiyi Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasında olublar.

"Naxçıvan" Universiteti ilə tanışlıq da nümayəndə heyətində xoş təəssüratlar yaradıb. Burada qonaqlara məlumat verilib ki, 2015-ci il sentyabrın 15-də "Naxçıvan" Universiteti üçün inşa olunan yeni universitet şəhərciyi istifadəyə verilib. Yaradılmış müasir şərait nəticəsində ali təhsil ocağının tələbələrinin sayı hər il artır. Universitetdə təhsilin keyfiyyəti yüksəldilir, ixtisas fənləri üzrə elmi dərəcəsi olan müəllimlərə üstünlük verilir, tədris zamanı müasir təlim texnologiyalarından istifadə diqqətdə saxlanılır.

Sonra muxtar respublikamızın qonaqları ümummilli liderimiz Heydər Əliyevin Əcəmi seyrəngahındakı büstünü ziyarət edib, önünə gül dəstələri qoyublar. Onlar "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olublar.

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan Möminə xatın türbəsi ilə tanışlıq qonaqlarda xoş təəssürat yaradıb. Burada onlara məlumat verilib ki, bu möhtəşəm abidə 1186-cı ildə tikilib. Həmin dövrdə Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının məzarı üzərində məqbərə yaradılmasına qərar verib və bundan sonra məqbərə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilib. Türbə yeraltı, yeni sərdabə və yerüstü hissələrdən ibarətdir.

Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında açıq səma altında nümayiş etdirilən daş abidələr də qonaqların diqqətini cəlb edib. Naxçıvan Muxtar Respublikasının ərazisindən tapılan müxtəlif dövrlərə aid 450 maddi-mədəniyyət nümunəsi – daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr haqqında məlumat alan qonaqlar buradan xoş təəssüratlarla ayrılıblar.

Günün ikinci yarısında qonaqlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fonduna gələrək fondun fəaliyyəti ilə tanış olub, ictimai işlərdə fəallıq göstərən gənclərlə görüşüblər.

Sonra Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatının nümayəndə heyəti "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi və Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olublar.

Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatının sədri Ramiz Göyüşovla həmsöhbət olub təəssüratlarını öyrəndik. Müsahibimiz bildirdi ki, artıq dördüncü dəfədir, Naxçıvana gəlir. Hər gəlişində də bir sıra yeniliklərin şahidi olur. Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatı tərəfindən partiyanın yaradılmasının 24-cü ildönümü ilə əlaqədar müsabiqələr, yarışlar keçirilib. Rayonun müxtəlif məktəblərindən 12 nəfər şagird qalib adına layiq görülüb və qaliblər Naxçıvan Muxtar Respublikasına gələrək bu qədim diyarın gəzməli-görməli yerləri ilə tanış olmaq imkanı əldə ediblər. Naxçıvandan zəngin təəssüratlarla ayrılırıq. İftixar hissi ilə deyə bilərik ki, bu gün Naxçıvan nəinki Azərbaycanın, eləcə də bütün Türk dünyasının ən gözəl məkanlarından biridir. Bütün bu yaradılanlar tarixlə müasirliyin uğurlu vəhdətinin nümunələridir. Çalışacağıq ki, bundan sonra da Binəqədi rayonunun gənclərini muxtar respublika ilə daha yaxından tanış edək, hər kəs Naxçıvanın qədim tarixinin, nə qədər inkişaf etdiyinin, çiçəkləndiyinin şahidi olsun.

## Üçrəngli bayrağımızın əbədi qayıdış günü

"Azərbaycan Xalq Cümhuriyyətinin 9 noyabr 1918-ci ildə qəbul etdiyi üçrəngli bayraq ikinci dəfə 17 noyabr 1990-cı ildə müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində keçirilən sessiyada dövlət atributu kimi qəbul edilib. Bu günü üçrəngli bayrağımızın dövlətçilik tariximizə əbədi qayıdış günü də hesab etmək olar". Bu fikirlər AMEA Naxçıvan Bölməsində 17 noyabr Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü ilə əlaqədar keçirilən tədbirdə səsləndirilib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, 17 noyabr Azərbaycan tarixində bir sıra hadisələrlə əlamətdardır. 17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi üçrəngli bayrağı təkcə muxtar dövlətin rəmzi kimi qəbul etməyib, həm də bu bayrağın Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi qəbulu ilə bağlı Azərbaycan Respublikası Ali Soveti qarşısında vəsatət qaldırıb. Nəticədə isə 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxıb və üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar verib.

Qeyd olunub ki, müstəqilliyimizin rəmzi olan bayrağımız həmişə uca tutulub, onun qorunması və mühafizəsi ilə bağlı bir çox qanun və sərəncamlar verilib. Belə ki, ulu öndər Heydər Əliyevin 1998-ci il 13 mart tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" Sərəncamı dövlət atributlarının, o cümlədən bayrağımızın təbliği baxımından mühüm əhəmiyyət daşıyıb. Bundan əlavə, 8 iyun 2004-cü ildə "Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında" Qanun imzalanıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 17 noyabr 2007-ci ildə Bayraq Meydanının yaradılması, 17 noyabr 2009-cu ildə isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında Sərəncam verib.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, müstəqil Azərbaycanın hər bir guşəsində olduğu kimi, Naxçıvanda da dövlət atributlarına münasibət yüksək səviyyədədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 22 avqust 2014-cü il tarixli Sərəncamına əsasən, Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılıb.

"Üçrəngli bayrağımızın əbədi qayıdış günü" mövzusunda geniş məruzə edən AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev bayrağımızda əksini tapmış rənglərin və rəmzlərin tarixi köklərindən, ifadə etdiyi mənalardan danışıb. Qeyd olunub ki, üzərindəki ayrı-ayrı atributları ilə birlikdə üçrəngli Azərbaycan bayrağı dünyanın ən anlamlı bayraqlarından biridir.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fərəddin Səfərli, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev mövzu ilə bağlı çıxış ediblər. Çıxış edənlər Azərbaycanın ərazi bütövlüyü və toxunulmazlığını, milli müstəqilliyimizi, azadlığımızı, dövlətçiliyimizi əks etdirən Dövlət Bayrağımızın dünya azərbaycanlılarının mənəvi-siyasi və mədəni birliyinin, vahidliyinin, bölünməzliyinin simvolu olduğunu vurğulayıblar. Hələ sovetlər dönəmində üçrəngli Azərbaycan bayrağı ilə bağlı müxtəlif yaradıcı ziyalıların əsərlərində, xalq mahnılarında mətnaltı ifadələrin qeyd olunması ilə bağlı maraqlı faktları diqqətə çatdırıblar.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# Üçrəngli bayrağımız Naxçıvanda əbədi yüksəkliyə qaldırılmışdır

Naxçıvan Azərbaycanın milli dövlətçilik tarixində mühüm yer tutur. Dünya sivilizasiyasına möhtəşəm mədəniyyət nümunələri bəxş edən bu qədim diyar həm də xalqımızın yüzillər boyu formalaşmış böyük dövlətçilik ənənələrini özündə yaşadır. Qədim tarixə, zəngin dəyərlərə malik xalqımızın yenilməzlik ruhu bu gün milli siyasət və ideologiyamızın ən mühüm simvolu olan üçrəngli bayrağımızda öz təsdiqini tapır. Mənəviyyatımızın, azad və müstəqil milli düşüncəmizin ən şanlı təcəssümü olan Azərbaycan bayrağı 26 il bundan əvvəl, 1990-cı il noyabrın 17-də xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda əbədi yüksəkliyə qaldırılmışdır. Ulu öndər sonralar bu barədə demişdir: ***“Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ kommunist partiyası da var idi, Sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından “sovet sosialist” sözləri çıxarılsın. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunsun – milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq”.***

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası yarandığı vaxtdan konstitusion səviyyədə özünün atributlarına, o cümlədən Dövlət Bayrağına malik olmuşdur. 1924-cü ildə qəbul edilmiş “Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə”də, Naxçıvan SSR-in 1926-cı, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 1937-ci və 1978-ci ildə qəbul edilmiş konstitusiyalarında muxtariyyətin Dövlət gerbi və Dövlət Bayrağı haqqında hüquqi müddəalar olmuş, onların təsvirləri verilmişdir. İlk dəfə olaraq 1998-ci il Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı və gerbi ilə yanaşı, Dövlət Himni də təsbit edilmişdir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 10-cu maddəsində qeyd olunur ki, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət Bayrağı, gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir”.

Naxçıvanın ötən əsrin 20-ci illərində qazandığı milli sərvəti – muxtariyyəti Azərbaycan dövlətçiliyinin inkişafı, tarixi ənənələrin qorunub yaşadılması istiqamətində atılan əsaslı addımlar üçün zəmin hazırlamışdır. Belə ki, Naxçıvanın muxtar dövlət olması 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının muxtar respublikanın Dövlət Bayrağı kimi qəbul edilməsi qarşısında heç bir siyasi-hüquqi maneənin olmamasına şərait yaratmışdır. Beləliklə, müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu prosesi Naxçıvandan başlanılmışdır. Ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin sessiyasında böyük dövlət xadiminin təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunması təklif edilmişdir.

Dahi şəxsiyyətin özünün işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” tarixi Qərarda deyilirdi:

*“Naxçıvan Muxtar Respublikasının Ali Məclisi* ***qərara alır:***

*“1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin”.*

Bundan sonra yeni qəbul olunmuş Dövlət Bayrağı Naxçıvan parlamentinə gətirilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ay-ulduzlu üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilmişdir.

Müstəqilliyimizin bərpasından keçən dövr ərzində ölkəmizdə milli atributlarımıza böyük sevgi ilə yanaşılmışdır. Müstəqilliyimizin, dövlətçiliyimizin və milli dəyərlərimizin daşıyıcısı olan üçrəngli bayrağımıza ümumxalq sevgisinin formalaşdırılması Heydər Əliyev siyasi yolunun əsasını təşkil edir. Bu yolun uğurla davam etdirilməsinin nəticəsidir ki, 2007-ci ildə paytaxt Bakı şəhərində Bayraq Meydanı yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildiyi gündə – 2009-cu il noyabrın 17-də imzaladığı tarixi Sərəncam ilə təsis edilmiş Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü müqəddəs bayrağımıza, tarixi keçmişimizə və mənəvi-siyasi dəyərlərimizə, Naxçıvanda formalaşdırılan tarixi dövlətçilik ənənələrinə dövlət səviyyəsində olan diqqət və ehtiramın ən yüksək səviyyədə göstəricisidir. Ölkə başçısı 2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində demişdir: ***“Bayraq Meydanının yaradılması Azərbaycanın gücünü, Azərbaycan xalqının öz dövlətinə sevgisini, dövlət rəmzlərimizə ehtiramımızı göstərir…”***

Çoxəsrlik dövlətçilik tariximizdə qəbul olunmuş rəmzlərin, rəsmi şəkildə istifadə edilmiş bayraqların bütöv bir sistem halında tədqiq edilməsi milli ideologiyamızın tarixi köklərini və mahiyyətini müəyyən etmək baxımından mühüm əhəmiyyət malikdir. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” 2014-cü il avqustun 22-də imzaladığı Sərəncam tarixi əhəmiyyət daşıyır. Sərəncamın icrasına uyğun olaraq Naxçıvan şəhərində yaradılan və 2014-cü ildə Azərbaycan dövlətçiliyi üçün tarixi əhəmiyyət kəsb edən bir gündə – noyabrın 17-də açılış mərasimi keçirilən Dövlət Bayrağı Meydanı və Muzeyi ulu öndərimiz Heydər Əliyevin yoluna sədaqətin təzahürü idi. Dövlət Bayrağı Meydanı və Muzeyinin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi bu baxımdan mühüm əhəmiyyətə malik olacaqdır”.***



Bu gün Naxçıvan şəhərindəki Bayraq Muzeyi dövlət atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna rol oynayır. Muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” Qərar və həmin tarixi günə aid fotoşəkillər nümayiş olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən muzeyə təqdim olunmuş Azərbaycan Respublikasının Dövlət Himninin mətninin və dövlət gerbinin təsvir olunduğu xatirə hədiyyələri, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları ekspozisiyada yerləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan xanlığının bayraqlarının tapılıb üzə çıxarılması istiqamətində tədqiqat işləri aparılmış, Naxçıvan xanlığının dövlət və döyüş bayraqları Rusiyanın Sankt-Peterburq şəhərindəki muzeylərdən tapılaraq Naxçıvana gətirilmişdir. Hazırda Dövlət Bayrağı Muzeyində tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerblər və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, qədim pul nişanları nümayiş etdirilir. ***“Dövlət Bayrağı Meydanı və Muzeyini ziyarət edən hər bir insan, hər bir gənc dövlət rəmzlərinin tariximizdəki yeri barədə məlumatlandırılmalı, dövlət atributlarının mahiyyəti və əhəmiyyəti geniş təbliğ olunmalı, ümummilli liderimiz Heydər Əliyevin səyi ilə üçrəngli bayrağımızın ilk dəfə Dövlət Bayrağı kimi qaldırıldığı gün – noyabrın 17-si hər il Naxçıvan Muxtar Respublikasında əlamətdar tarixi gün kimi qeyd edilməlidir”***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında” 2014-cü il 17 noyabr tarixli Sərəncamına əsasən, hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasında Dövlət Bayrağı Günü kimi qeyd edilir.

*Üçrəngli bayrağımız Azərbaycanımızın müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin, mənəvi dünyasının rəmzidir. Hər bir Azərbaycan vətəndaşı bayrağımıza ehtiram göstərir, bunu özünün müqəddəs borcu kimi qəbul edir. Azərbaycan əsgəri də Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən üçrəngli bayrağa and içir. Bu gün qədim diyarın sakinləri noyabrın 17-ni Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd etməklə bütün dünyada Azərbaycan dövlətinin və xalqının imzasını əbədi təsdiq edən üçrəngli bayrağımızın qürurunu yaşayır.*

**“Şərq qapısı”**

# Kölgən düşən yerləri səcdəgahım bilirəm

***Sən mənə minlərlə qazilərin, yüzlərlə şəhidlərin əmanətisən, şanlı bayrağım. Mən səni sevməyi sənin rənglərinin ahəngindən öyrəndim. Sən mənə ilk rənginlə qəhrəmanlıqla dolu milli kimliyimi, ikinci rənginlə azadlığımın nəyin bahasına əldə edildiyini, üçüncü rənginlə mənəviyyatımın fundamentində nəyin dayandığını xatırladırsan, şanlı bayrağım. Üzərindəki hilal və cənnət nişanəsi olan səkkizguşəli ulduz bu dünyadakı cənnətimin Azərbaycan olduğunu deyir mənə.***

Və burda – bəşər sivilizasiyasının ikinci başlanğıcı olan Naxçıvanda sənin dalğalanmanı görməkdən, bəşəriyyətin məhz buradan bütün dünyaya yayılmasının verdiyi qürur və özünənamın hissi ilə addımlamaqdan gözəl nə hiss ola bilər ki?! Və sənin dalğalandığın o yüksəkliyə doğru addımladıqca milli dövlətçiliyimizin alınmaz qalası hesab edilən Naxçıvanda sənin yerləşdiyin zirvəyə gedən yolun özündə belə bir fəlsəfə olduğunu anlayıram. Budur, mən üzərində “Bayraq Meydanı” yazılan darvazadan içəri keçirəm. Pillələrlə yuxarıya doğru addımladıqca fərqinə varıram ki, hər tərəf yaşıl rəngə boyanıb. Bu bizə bayrağımızın yaşıl rəngini xatırladır. Və Bayraq Meydanına qalxan yolun tam ortasında şəhidlərimizin xatirəsinə ucaldılmış abidə kompleksi. Bu bilirsinizmi nədir? Bu, Azərbaycanın müstəqilliyinin şəhidlərimizin qanı hesabına əldə edildiyini göstərən bir simvoldur. Şəhid qanları al-qırmızı rəngdədir axı, elə bayrağımızın tən ortasında yerləşən rəng də. Yuxarı qalxdıqca gözüm bayrağımızın ilk rənginin – mavi rəngin simvolunu axtarır. Budur, dünyanın təsvirini əks etdirən mavi rəngli qlobus və üzərindəki sülh göyərçini. Bu düşünülmüş bir simvolikadırmı? Bunu bilmirəm. Amma əminəm ki, bayrağımın dalğalandığı zirvəyə doğru gedən yolun üzərində obyektlərin və rənglərin belə bir ardıcıllıqla düzülməsi təsadüfi deyil.

Və Bayraq Meydanındayam. Dövlət Bayrağı Muzeyinin səkkizguşəli binasına doğru addımlayıram. Məni qarşılayan muzeyin bələdçisi Sevinc Rəsulova burada saxlanılan eksponatlar haqqında məlumat verdikcə Azərbaycanımızın tarixən ictimai-siyasi fikir mərkəzlərindən biri olmuş Naxçıvanın keçdiyi tarixi yol canlanır gözlərim önündə.

Naxçıvan xanlığının 1747-1828-ci illərə aid edilən qırmızı rəngli parça üzərində təsvir edilmiş “Şir və Günəş” simvollu bayrağı. Bu bayraq Azərbaycan Səfəvi-Qızılbaş dövlətinə sadiqlikləri ilə seçilən, Şah İsmayıl Xətai sarayının ən sadiq mühafizəçiləri olan Kəngərlilərin idarə etdikləri Naxçıvan xanlığının əzəmətini əks etdirir.

Bugünkü üçrəngli bayrağımız üzərindəki hilal və səkkizguşəli ulduz bu torpaqda yaranan neçə-neçə dövlətlərin simvolu olmuşdur. Naxçıvan xanlığının Dövlət Bayrağının üzərindəki hilal və səkkizguşəli ulduz bunu düşünməyimizə əsas verir. Bir də xanlığın o bayrağı üzərindəki zəfəri müjdələyən sözlər “Allah dərgahından kömək və qələbə yaxındır” deyir.

XIX əsrə aid Kəngərli süvarilərinin döyüş bayrağı. İkibaşlı qartalın başı üzərində tac. Bayraqda təsvir edilmiş qalxan üzərində isə atlı Kəngərli döyüşçüsünün təsviri. Sanki Bilici Kəngərlilərin qəhrəmanlığını və əzmini özündə əks etdirən təsvirdəki döyüşçü atını Biçənək aşırımına doğru çapır.

Naxçıvan İctimai Şuralar Cümhuriyyətinin bayrağı – 1922-ci il. Qırmızı bayraq üzərində ərəb qrafikalı əski Azərbaycan əlifbasının hərfləri və latın qrafikalı Azərbaycan əlifbasının hərfləri paralel olaraq saxlanılıb. Hələ ki Şərq xalqlarına azadlıq və hürriyyət vəd etməklə irəliləməyə çalışan bolşevizm cəlbedici olsun deyə, Şərqin mənəvi dəyərlərini simvolizə edən yaşıl rəngi də bayrağın üzərindən silməyib.

Naxçıvan İctimai Şuralar Cümhuriyyətinin bayrağı – 1926-cı il. Qırmızı rəngli bayrağın üzərinə fəhlə və kəndli simvolu kimi təqdim edilən oraq və çəkic şəkli həkk olunub. 1922-ci il bayrağındakı yaşıl rəng bayrağımızın üzərində yoxdur, onu içində beşguşəli ulduz olan hilal əvəzləyir.

Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının bayrağı – 1937-ci il. Artıq qırmızı rəngli bayraq üzərində hilal da yoxdur. Sanki o dönəmin repressiyaları bayraqdan da yan keçməyib. Bayrağın üzərində “Az SSR” və “Naxçıvan ASSR” ifadələri həkk edilib.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının bayrağı – 1956-cı il. Müharibədən sonrakı dövrün bayrağında qırmızı rəngdən əlavə bayrağın aşağı hissəsində bir mavi zolaq da var.

“Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 17 noyabr 1990-cı il tarixli Qərarı. Yəqin ki, hamımız xatırladıq o çətin və ağır dönəmdə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının cəsarətli və qətiyyətli addımlarını. O addımlar ki Azərbaycanın müstəqilliyə gedən yolunda sonradan nümunəyə çevrilmişdir.

Budur biz bələdçimizlə birlikdə Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının üçrəngli aylı-ulduzlu bayrağının önündəyik. O bayraq ki onu dalğalandırmaq missiyası ulu öndər tərəfindən əmin əllərə etibar olunub – Azərbaycanda da, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da. Və bu müqəddəs missiyanın daşıyıcıları bayrağımızı ən layiqli yerlərdə dalğalandırıblar.

Elə bu hisslərin təsiri altında muzeyin qonaq kitabına yaxınlaşıram və qələmi götürüb yeni yazımın ilk cümləsini məhz o kitaba qeyd edirəm: Kölgən düşən yerləri səcdəgahım bilirəm...

**✍ Elnur KƏLBİZADƏ**

# Kimsəsiz kimsə yox, var hər kəsin bir kimsəsi ...

## *Zülmətdən işığa aparan yol və ya əngəllər aradan götürüləndə*

***... Mənim üçün bu məkan ikinci evim, buradakı insanlar bacı-qardaşlarım, dostlarım, sirdaşlarım, müəllimlərimdi. Bəzən düşünürəm ki, əgər bura olmasaydı, mənim halım necə olardı, kiminlə oturub söhbət edərdim, kiminlə dərdimi, qazandığım uğurları bölüşərdim? Axı bundan əvvəlki illərdə oxuduğum məktəb də, ali təhsil ocağı da müvəqqəti idi, düşünürdüm ki, bir gün bütün bunların sonu gələcək və mən yenidən özümü qaranlığa qərq edəcəyəm. Yaxşı ki bu məkanı dövlətimiz mənim kimi yüzlərlə insan üçün inşa etdi, valideynlərin qəlbində ümid işığı yandırdı, uşaqlarda gələcəyə inam oyatdı, onları mənəvi aydınlığa qovuşdurdu. Məhz burada uşaqlar hiss etdilər ki, fiziki əngəllər aşıla billəndir, heç bir fiziki məhdudiyyət onları nələri isə əldə etməkdən, nələri isə qazanmaqdan məhrum edə bilməz. Yaxşı ki dövlətimiz hər zaman yanımızdadır, humanist rəhbərimizin qayğısını və nəvazişini hər gün, hər dəqiqə hiss edirik. Bütün bunlar olmasaydı, görəsən, taleyimiz necə olardı? Bax orasını Allah bilir.***



Sonsuz bir səmimiyyət və dərin ehtiramla, kövrək düşüncələrdən yaranan bu fikirləri ötən günlərdə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində qabaq-qənşər əyləşdiyim bir gəncdən, dünyaya gəldiyi zaman gözünün nurunu itirən, ancaq bütün bunlara baxmayaraq, böyük həyat eşqi ilə oxumağa, öyrənməyə həvəs göstərən Elməddin Kərimovdan eşidəndə çox təsirlənmişdim. Ona heyrətlənmişdim ki, bütün fiziki məhdudiyyətlərə baxmayaraq, onun səsində sonsuz bir inam, nəhayətsiz bir nikbinlik var idi. Sağlamlığı, səhhəti yerində olan insanların şükür etmək əvəzinə şikayət etdiklərini çox eşitmişdim və indi qarşımda oturub sakitcə keçmişdə olanlardan, mərkəzə gəlişinin tarixçəsindən, buradakı fəaliyyətindən, müəllimlik həyatına başlamasından, brayl əlifbasını necə öyrənməsindən, oxuduğu kitablardan çıxardığı nəticələrdən aram-aram danışan, sonra brayl əlifbası ilə yazılmış "Qurani-Kərim"i oxuyan bu gənci görəndə düşünmüşdüm ki, bizim çoxumuz çox naşükürük. Elə hey şikayət edirik, aldığımız nəfəsin də qədrini bilmirik, dediyimiz sözün qiymətini də. Dünyanın ən innovativ texnologiyaları ilə təchiz edilən bu mərkəzin müəllimlərinin işi o qədər asan deyil. Fiziki məhdudiyyətli uşaqlara bircə sözü söylətmək, bir əşyanın adını öyrətmək, bir hərəkəti icra etdirmək üçün, necə deyərlər, dəridən-qabıqdan çıxan, bəzən bir sözü dəfələrlə təkrar edən müəllimlərin işi çox çətin olsa da, müasir texnologiyalar onların karına gəlir. Burada hər şey son dərəcə dəqiqliklə düşünülüb və bu qəbildən uşaqların yenidən cəmiyyətə qazandırılması üçün nə lazımdırsa, edilib. Bu qəbildən uşaqların yaradıcılıq müsabiqələrinə, idman yarışlarına cəlbi də unudulmayıb. Bütün bunları görəndə dövlətimizin bu sahəyə nə qədər həssaslıqla yanaşdığının şahidi olub, təsirlənməmək mümkün deyil.

Uşaqlar kimi qocalar və tənhalar da insanların qayğı və nəvazişinə möhtacdırlar. Dövlətimiz belə insanları təkbaşına, kimsəsə möhtac, tənhalığın məngənəsində sıxılmağa qoymayıb, hər zaman yanlarında olub, dilbər guşəmiz olan Şahbuz şəhərində beləlsinə isti yuva rolunu oynayan Ahıllar evini onların ixtiyarına verib. Bu məkanın sakinlərindən Yuriy Vladimiroviç Skvarçov deyir ki, Ahıllar evində olan bir dostu ilə görüşəndə söhbət əsnasında məlum olub ki, ömrünün bu yaşında əsl övlad qayğısı görəcəyi, rahatlıq tapacağı yer elə bu məkandı. Ona görə də buranı seçib. Burada onun ömrünün qalan illərini rahat, sakit keçirməsi üçün hər cür şərait yaradılıb, yayın istisində sərin, qışda isti otaqlarda dincəlir, televizora baxır, yoldaşları ilə masaüstü oyunlarla vaxt keçirir, qəzet, kitab oxuyur, vaxtlı-vaxtında yemək yeyir. Çox sevinir ki, bu yaşda heç kimə yük olmayıb, dövlətimizə, onun humanist, qayğıkeş insanlarına sığınıb. Bu evdə əməkdaşlar tərəfindən onlara doğma övlad münasibəti göstərilir, onlar tez-tez muxtar respublikanın gəzməli-görməli yerlərində olurlar, müxtəlif mədəni-kütləvi tədbirlərdə iştirak edirlər.

### *Dünəndən bu günə gətirən yolda*

Dünən deyiləndə muxtar respublikanın məhdud fiziki imkanlı insanları hansı əziyyətlərə qatlaşdıqlarını yaxşı xatırlayır, məhdudiyyətlərdən əziyyət çəkmələrini, müalicə üçün hara müraciət edəcəklərini bilmədiklərini yada salırlar. Bu gün deyiləndə isə onların gözü önündə yaradılan sərhədsiz imkanlar canlanır. Əlillərin Bərpa Mərkəzində indi onlar üçün bütün imkanlar yaradılıb. Bu sağlamlıq ocağı öz səliqə-sahmanı, məhdud fiziki imkanlı şəxslər üçün yaradılan yüksək şəraiti, müasir tibbi avadanlıqları, əməkdaşların xəstələrə xüsusi diqqəti ilə insanı valeh edir. Burada tibbin ən son avadanlıqları ilə təchiz olunmuş müxtəlif müalicə və müayinə kabinələri var. İnfraqırmızı, ultrabənövşəyi şüa ilə, qısadalğalı elektriklə, müxtəlif tezlikli elektrik aparatları, həmçinin neçə-neçə masaj qurğuları və parafinlə müalicə olunan insanlar orqanizm daxilindəki rahatsızlıqları, oynaqlarındakı ağrıverici amilləri, duzlaşmaları, müxtəlif nahiyələrindəki zədələnmələri, bədənlərindəki süstlük əlamətlərini aradan qaldırır, xoş əhval-ruhiyyə ilə evlərinə qayıdırlar. Bərpa mərkəzində masaj, duş, dövrəvi və çiləmə duşlar, süni qaçış zolağı, velosiped və ikinəfərlik, eyni anda bir çox hərəkətləri yerinə yetirən idman qurğuları, trenajor zalı da vardır ki, əsəblərin sakitləşdirilməsi, əzələlərin hərəkətə gətirilməsi, oynaq ağrılarının müalicəsi, habelə iflic əl-qol və ayaqların fəallaşdırılması üçün bu qurğular xüsusi əhəmiyyətə malikdir.

Burada müalicə alan, sağtərəfli hemipalezdən əziyyət çəkən Sitarə Orucova deyir ki, bu mərkəzin yaradılmasından öncə az narahatlıq keçirmişəm. Gecələri yenə bir-iki saat yuxulayıb, necə deyərlər, yola verirdim. Ancaq gündüzləri evdəkilər işə gedəndə və mən dörd divar arasında qalanda fikirləşirdim: görəsən, nə zamansa elə bir məkan olacaqmı ki, gedib həm insanlarla ünsiyyətdə olum, həm də müalicə alım. Yaxşı ki dövlətimiz tərəfindən Əlillərin Bərpa Mərkəzi istifadəyə verildi, mənim və mənim kimi yüzlərlə insan üçün ümid qapısı aralandı. Artıq bir neçə ildir ki, burada müalicə alıram. Müalicələr həm səhhətimin yaxşılaşmasına təsir göstərir, həm də əhval-ruhiyyəmə. Bütün bunlara görə dövlətimizə minnətdaram.

### *Görülən işlər bu sahəyə göstərilən davamlı dövlət qayğısından xəbər verir*

Bu gün muxtar respublikada sağlamlıq imkanları məhdud vətəndaşların sosial müdafiəsini gücləndirmək məqsədilə 7121 əlilə, o cümlədən 1971 sağlamlıq imkanları məhdud uşağa sosial müavinət, 239 şəhid ailəsinə, 1620 müharibə əlili və iştirakçısına, habelə I qrup ümumi səbəbdən əlilə Prezident təqaüdü ödənilir. Bu, o deməkdir ki, bu kateqoriyadan olan 7000-dən artıq vətəndaşımız heç kimdən kömək ummadan öz gün-güzəranını qura bilir, 2000-ə yaxın sağlamlıq imkanları məhdud uşağın valideyni övladının xərclərini çətinlik qarşısında qalmadan qarşılayır, 200-dən artıq şəhid ailəsi dövlətimizdən başqa heç kimin yardımına möhtac deyil, 1620 nəfər müharibə əlili və iştirakçısı təqaüddən yararlanaraq sosial rifahını təmin edir. Bütün bunlar hələ də blokadada olan Naxçıvan Muxtar Respublikasında sosial sahəyə böyük önəm verilməsinin rəqəmlərlə ifadə olunan göstəriciləri, humanist ideyalarla formalaşan mənəvi dəyərlərimizə sədaqətin bariz nümunələridir. Muxtar respublika rəhbərinin 30 may 2006-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nın uğurlu icrası ahıl vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması üçün geniş imkanlar açıb. Bu kateqoriyadan olan insanlar bundan iki onillik öncə çox çətinliklərlə üzləşsələr də, bu çətinliklər indi arxada qalıb. Hazırda tənha yaşayan və hərəkət qabiliyyəti məhdudlaşmış 444 ahıla sosial-məişət xidməti göstərilir, tənha ahıllara mütəmadi olaraq evlərində baş çəkilir, onların qayğıları, problemləri ilə maraqlanılır. Onların sağlamlığı və səhhəti də unudulmur, mütəmadi olaraq həkim müayinələri təşkil edilir, zəruri sosial problemləri yerindəcə həll olunur, mənzilləri, bağ-bağçaları səliqə-sahmana salınır. Bəlkə də, çox övladın öz valideynləri üçün yarada bilmədiyi rahatlığın onlar üçün yaradılması dövlətimiz tərəfindən hər bir vətəndaşa həssas münasibət göstərilməsindən, insani dəyərlərin hər bir dəyərdən uca tutulmasından irəli gəlir. Son illər sosial qayğıya ehtiyacı olan 2 ahılın hər cür şəraiti olan mənzillə təmin edilməsi təkcə onlar tərəfindən deyil, hər bir vətəndaş tərəfindən razılıqla və minnətdarlıqla qarşılanıb.

Fiziki məhdudiyyətli şəxslərin həyata nə qədər böyük ümidlərlə baxdığını görmək üçün hər birimizin Naxçıvan şəhərindəki bərpa mərkəzlərinə üz tutması kifayət edər. Muxtar respublikada sosial sahədə aparılan təqdirəlayiq işlərdən biri də sağlamlıq imkanları məhdud şəxslərin tibbi reabilitasiyasıdır. Fəaliyyət dövrü ərzində Naxçıvan Əlillərin Bərpa Mərkəzində 2786 nəfər, Naxçıvan Uşaq Bərpa Mərkəzində 2236 uşaq müalicə alıb, onurğa və sinir xəstəliyi olan 226 nəfər xarici ölkələrə müalicəyə göndərilib. Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı, Əlillərin Bərpa Mərkəzində isə əmək terapiyası otağı yaradılıb. Son 20 il ərzində sağlamlıq imkanları məhdud 4 min 984 nəfər muxtar respublika sakininə müxtəlif texniki reabilitasiya vasitələri verilib, 3018 nəfərə protez-ortopedik xidmət göstərilib, respublikamızın müxtəlif sanatoriya və pansionatlarında müalicə və istirahətləri məqsədilə 2 min 497 nəfər göndərişlərlə təmin olunub. Bundan başqa, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı, Çernobıl Atom Elektrik Stansiyasında baş verən qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak edərək sağlamlıq imkanları məhdudlaşan, 1941-1945-ci illər müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərdən 456 nəfər minik avtomobili ilə, 210 əlil və şəhid ailəsi mənzil və fərdi yaşayış evi ilə təmin olunub.

Qeyd olunanlarla yanaşı, muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyasına, onların informasiya texnologiyalarının imkanlarından istifadəsinə geniş imkanlar yaradılıb. 2010-cu ildən fəaliyyətə başlayan Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində hərəkət qabiliyyəti məhdud uşaqların təhsil almasını təmin etmək üçün Distant Tədris Mərkəzi, həmçinin sağlamlıq imkanları məhdud şəxslərin sosial reabilitasiyasını təmin etmək məqsədilə Defektoloji bölmə, kinekt, əmək terapiyası və təlim-bərpa otaqları, Psixoloji dəstək xidməti fəaliyyətə başlayıb. Bununla yanaşı, sağlamlıq imkanları məhdud şəxslər üçün audio və elektron kitabxana xidməti göstərilir, görmə və eşitmə məhdudiyyəti olan şəxslər üçün brayl və daktilo əlifbasının tədrisi üzrə kurslar təşkil olunur, görmə məhdudiyyətli şəxslər üçün aylıq Brayl jurnalı nəşr edilir. Adıçəkilən müəssisələrdə sağlamlıq imkanları məhdud uşaqlarla söhbətlərimiz zamanı diqqətimizi xüsusilə çəkən məqamlardan biri də bu oldu ki, fiziki əngəllərə baxmayaraq, bu qəbildən olan uşaqlar oxumağa, öyrənməyə böyük səy göstərirlər. Bu mərkəzlərə gələn uşaqların çoxunda da belə bir fikir formalaşdırılıb ki, qarşıya çıxan bütün maneələri dəf etmək üçün oxumaq, öyrənmək lazımdır.

"2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın uğurlu icrası bu kateqoriyadan olan uşaqların müasir dövrün tələbləri səviyyəsində təhsil almalarına, onların cəmiyyətə daha fəal inteqrasiyasına əhəmiyyətli dərəcədə təsir göstərib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" isə bu kateqoriyadan olan uşaqların təhsilə cəlbinin davamlılığının təmin edilməsinə, inklüziv və distant təhsil imkanlarının artırılmasına şərait yaradıb. Sonuncu dövlət proqramının icrası istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilib, məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar haqqında məlumat bazası yaradılıb. Keçən il və bu ilin ötən dövründə məktəbəqədər təhsil müəssisələrində, ümumilikdə, sağlamlıq imkanları məhdud 68 uşaq, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində isə 15 uşaq qeydiyyatda olub. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin Defektoloji bölməsinin və Psixoloji dəstək xidmətinin mütəxəssisləri Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində uşaqlarla fərdi qaydada reabilitasiya yönümlü məşğələlər aparır, təlim-tərbiyə işinə məsul mütəxəssislərə və valideynlərə məslə-hətlər verirlər. Bundan başqa, məktəb yaşına çatan sağlamlıq imkanları məhdud uşaqlar haqqındakı məlumat bazası da daim yenilənir. İndi Distant Tədris Mərkəzində 24 uşaq təhsil alır. Mərkəzdə eşitmə qabiliyyəti məhdud şəxs və məktəbyaşlı uşaqlar üçün distant dərslərin keçilməsi də davam etdirilir. Tədrisə cəlb edilmiş uşaqlar isə xüsusi dərsliklərlə təmin olunublar. Onların məktəbdənkənar müəssisələrə, musiqi məktəblərinə, idman qruplarına cəlbi istiqamətində də məqsədyönlü işlər görülür.

### *Keçmişə Əminə nənənin xatirələrindən bir baxış*

Bu ilin baharından xatirə qalan bir hadisəni oxucularla bölüşmək istərdim. Biz Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən hərtərəfli qayğı ilə əhatə edilən Əminə Hüseynovanın evinə baş çəkməyə getmişdik. 1934-cü il təvəllüdlü Əminə nənənin düşüncələrindən bir parça ilə yazımı bitirmək istərdim. Onun dediklərindən:

– Doxsanıncı illərin əvvəllərində, qarışıqlıq düşən vaxtda, yaşadığım evdə, dörd divar arasında olsam da, tək-tənha yaşadığım üçün çox qorxurdum. Rayonun bir təşkilatından da qapımı açan, əhvalımı soruşan yox idi. Səhərdən axşama qonum-qonşulardan bir neçəsi ilə söhbət edib vaxtımı keçirirdim. Ancaq qaranlıq çökən kimi deyirdim ki, indi hansısa yolunu azmışın biri gəlib qapımı döyəcək. Buna bir çarə də tapmışdım. Axşamlar bir cüt kişi ayaqqabısını cütləyib qapının ağzına qoyurdum ki, kimin bizim evdən oğurluq etmək kimi fikri olsa, ayaqqabıları görüb fikrini dəyişdirsin. O illərin üstündən çox müddət keçib, hər şey yaxşıya doğru dəyişilib. Sağ olsun, dövlətimiz indi mənim kimi onlarla tənha ahılın qayğısına qalır. Hər yerdə qayda-qanun yaradılıb. Artıq evimdə qorxusuz-ürküsüz rahat yaşaya bilirəm. Əvvəllər aylarla gözüm qapıda qalır, bir nəfərin evimə gəlməsini arzu edirdim. İndi bu arzuma çatmışam. Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin əməkdaşları mənə əsl övlad qayğısı göstərir, həftə ərzində bir neçə dəfə evimə baş çəkib qayğıma qalır, səhhətimlə maraqlanır, həyət- bacanı səliqəyə salırlar. Buna görə dövlətimizə də, mənim qayğıma qalanlara da minnətdaram.

### *Son qeydlər...*

*Yuxarıda qeyd olunanlar, təəssüratlar sosial sahəyə göstərilən dövlət qayğısının nümunələrindən yalnız kiçik bir hissəsidir. Bu sahədə görülən işlərin hamısını, dünəndən bu günə keçilən yolu tamamilə əks etdirmək üçün günlər, aylar lazımdır. Bu gün dövlətimiz tənha vətəndaşını da unutmur, fiziki məhdudiyyətli insanlarını da. Əksinə, qayğıkeş insanlar tərəfindən maksimum dərəcədə ona səy göstərilir ki, hər şey bu qəbildən olan insanların ürəyincə olsun, bütün əngəllər aradan qaldırılsın. Bir məşhur kəlamda deyildiyi kimi: Kimsəsiz kimsə yox, var hər kəsin bir kimsəsi. Bu insanların kimsəsi isə hər gün inkişaf edən, qüdrətli, müstəqil Azərbaycan dövlətidir.*

**Səbuhi HÜSEYNOV**
***Yazı "Naxçıvan: dünən və bu gün" yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür***

# Beynəlxalq Tolerantlıq Günü qeyd olunub

***Hər il noyabrın 16-sı dünyada Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunur. Beynəlxalq Tolerantlıq Günü münasibətilə Naxçıvan şəhər məscidində Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarə tərəfindən təşkil olunmuş tədbirdə idarənin rəisi Vüqar Babayev çıxış edərək deyib ki, İslama görə tolerantlıq müxtəlif inanclı insanlar arasında bir körpüdür.***



Bildirilib ki, Azərbaycan əzəldən tolerantlıq və dözümlülük ənənəsi zəngin olan ölkədir. Bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsinin Azərbaycan olduğunu rahatlıqla qeyd edə bilərik. Tolerantlıq Azərbaycanın milli sərvəti olaraq qəbul edilib.

Qeyd olunub ki, ölkəmizdə formalaşdırılmış tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilib. Bu, Əsas Qanunumuzda da öz əksini tapıb. Azərbaycan Konstitusiyasının 48-ci maddəsinə əsasən, hər kəsin vicdan azadlığı vardır. Hər bir insanın dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibətilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra İslam ənənələrinə əsaslanan müqəddəs bayramların qeyd olunması, müxtəlif dini konfessiyaların bayramlarının ölkə başçısı tərəfindən təbrik edilməsi, sovetlər dövründə müxtəlif məqsədlər üçün istifadə edilən, yaxud qapısı kilidli olan məbədlərin açılması, eləcə də təmir olunub insanların ixtiyarına verilməsi dini tolerantlığa dövlət tərəfindən verilən töhfələrdir. Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində yenidən qurulan ibadət evləri də ölkəmizdə tolerantlığın qorunmasına bariz nümunədir. Hazırda ölkəmizdə müsəlmanlarla yanaşı, pravoslav, Roma-katolik konfessiyaları, protestantlığın müxtəlif cərəyanları olan Yevangel-lüteranlar, Yevangel xristian baptistləri, Malakan ruhani xristianları, Alban-udi xristian dini icmaları, Avropa yəhudiləri-əşkinazilər, dağ yəhudiləri olan sefartlar, gürcü yəhudiləri və sair dinlərin mənsubları birlikdə tolerantlıq, əmin-amanlıq şəraitində yaşayır və öz dini ibadətlərini rahatlıqla yerinə yetirirlər. Ölkəmizdə onlarla qeyri-dini təmayüllü məbədlər fəaliyyət göstərir. Dövlətin gücünü əhalinin çoxmillətli olmasında, müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgə yaşayışında görən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tolerantlığın Azərbaycan xalqının ruhunda olduğunu bütün ölkələrə göstərir. Ölkə başçısı bildirib ki, Böyük İpək Yolunun üzərində yerləşən ölkəmiz tarixboyu bütün səmavi dinlərin məbədlərini ucaldaraq onlara sitayiş edən insanlar üçün unikal dözümlülük mühitinin formalaşdırılması ilə həqiqətən fəxr edə bilər.

Bildirilib ki, muxtar respublikamızda da məscidlərimiz təmir olunub, yenidən qurulub, müxtəlif dini mərasimlərin yüksək səviyyədə qeyd edilməsinə hərtərəfli şərait yaradılıb. Həmçinin tarixən burada yaşayan hansı dinin nümayəndəsi olursa-olsun, dininə, əqidəsinə, etiqadına hörmətlə yanaşılıb. Bu gün muxtar respublikamızda yaşayan digər millətlərin nümayəndələri bunu minnətdarlıqla qeyd edirlər.

✍ **Hafizə ƏLİYEVA**

# Tanınmış tarzənlə görüş keçirilib

***Naxçıvan Musiqi Kollecində Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, tanınmış tarzən Zöhrab Axundovla görüş keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı, Xalq artisti Kamran Quliyev açaraq Zöhrab Axundovu anadan olmasının 70 illik yubileyi münasibətilə təbrik edib, ona yaradıcılıq uğurları arzulayıb. Qeyd edilib ki, Zöhrab Axundov tar ifaçılığı sahəsində seçilən sənətkarlardan olmaqla gənc tar ifaçılarının yetişməsinə böyük zəhmət sərf edib.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev "Zöhrab Axundovun həyat və yaradıcılığı" mövzusunda çıxış edib. Bildirilib ki, Zöhrab Axundov 1946-cı ildə Naxçıvan şəhərində dünyaya göz açıb. Onun atası muxtar respublikanın tanınmış tarzənlərindən olub, həm də bəstəkarlıq edib, gözəl mahnılar müəllifi kimi tanınıb.

Zöhrab Axundov 1966-cı ildən "Araz" mahnı və rəqs ansamblında çalışıb. 2001-ci ildən 2016-cı ilə qədər Zöhrab Axundov Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının bədii rəhbəri işləyib. Zöhrab Axundov ustad tarzən kimi ansamblın tərkibində Rusiya, Gürcüstan, Türkiyə, İran, Polşa və başqa ölkələrdə qastrol səfərlərində olub, qədim diyarımızın musiqi mədəniyyətini layiqincə təmsil edib.

Zöhrab Axundovun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, ustad tarzən bir sıra dövlət mükafatlarına, Prezident mükafatına və 2002-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülüb. Zöhrab Axundov bu gün də musiqimizin inkişafı üçün çalışır, xalq musiqisini, muğamı gənclərə həvəslə öyrədir.

Tədbirdə Zöhrab Axundovun müşayiəti ilə ifa olunan musiqi nömrələri alqışlarla qarşılanıb.

Zöhrab Axundov çıxış edərək onun sənətinə verilən yüksək qiymət üçün minnətdarlığını ifadə edib və bildirib ki, bundan sonra da musiqi mədəniyyətimizin inkişafı üçün əlindən gələni əsirgəməyəcək.

# Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin hesabat konserti olub

*Son illər muxtar respublikamızda mədəniyyətin, incəsənətin inkişafı üçün mühüm işlər görülüb. Görülən işlər sırasında yeni musiqi kollektivlərinin yaradılmasını da göstərmək olar. Çoxsaylı folklor kollektivləri, Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestri, Naxçıvan Dövlət Uşaq Filarmoniyası, Aşıqlar Birliyi və başqa kollektiv yaradıcı təşkilatlar bunun bariz nümunəsidir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin yaradılması haqqında" 10 yanvar 2012-ci il tarixli Sərəncamı musiqi mədəniyyətimizin inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestri muxtar respublikada istedadlı gənclərin yaradıcılıq potensialına əsaslanaraq qısa vaxt ərzində təşkil olunub və öz konsertləri ilə tamaşaçı rəğbətini qazana bilib. Bu musiqi kollektivinin fəaliyyəti üçün lazımi şərait yaradılıb, orkestrin musiqiçiləri və solistləri üçün geyim dəstləri hazırlanıb, musiqi alətləri alınaraq kollektivin istifadəsinə verilib.



Yaxın aylarda yaradılmasının 7 ili tamam olacaq Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestri muxtar respublikanın mədəni həyatında fəal iştirak edir, repertuar zənginliyinə diqqət yetirməklə ictimaiyyət qarşısında konsert proqramları ilə çıxış edir.

Noyabrın 16-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin bu dəfəki konserti hesabat xarakteri daşıyırdı.

Konsertdə Azərbaycan Respublikasının Əməkdar artisti Tural Nəcəfov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Azər Cəfərli, Yaşar Qurbanov, Elçin Nağıyev, solistlərdən Nərmin Hüseynova, Qəribə Həsənova, İlkin Abdullayev və Əli Davudi Azərbaycan bəstəkarlarının mahnılarını ifa ediblər, lirik melodiyalar, xarici ölkə bəstəkarlarının musiqiləri səsləndirilib. Səid Rüstəmovun "Hardasan", Fikrət Əmirovun "Reyhan", Tofiq Quliyevin "Sevgi valsı", "Lirik nəğmə", Ramiz Mirişlinin "Bir xumar baxışla", Emin Sabitoğlunun "Ötən günlərim" mahnıları alqışlarla qarşılanıb.

**Əli RZAYEV**

# "Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri (miflər, əfsanələr və faktlar)" adlı kitabın təqdimat mərasimi keçirilib




***"Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Çingiz Qacarın rus dilində nəşr edilmiş "Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri" adlı kitabı indiyə qədər Naxçıvanın tədqiqi sahəsində əldə edilmiş elmi nailiyyətlərin populyarlaşdırılması və dünyaya təbliği baxımından çox önəmlidir. Kitabın üzərində qeyd edilmiş "Ümumdünya daşqınından sonra həyat Naxçıvanda başlamışdır" fikri də məhz Naxçıvanda aparılan elmi tədqiqatların əsas nəticələrindən biridir".***

Bu fikirlər AMEA Naxçıvan Bölməsində keçirilən təqdimat mərasimində səsləndirilib. Təqdimat mərasimini giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, Çingiz Qacar fizika-riyaziyyat elmləri doktoru olsa da, hələ elmi fəaliyyətinin ilk dövrlərindən başlayaraq Azərbaycanın tarixi şəxsiyyətlərinin həyatının öyrənilməsinə, eləcə də ayrı-ayrı qədim Azərbaycan şəhərlərinin tarixinin təbliğinə çox ciddi maraq göstərib. Heç də təsadüfi deyildir ki, müəllifin müxtəlif illərdə yazdığı rus, ingilis və Azərbaycan dillərində nəşr edilmiş "Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri", "Qacarlar", "Köhnə Bakı", "Köhnə Şuşa", "Tiflis. Vorontsova 53, 55" kitabları təkcə tarixlə maraqlanan oxucuların deyil, həm də tədqiqatçıların diqqətini cəlb edib. Akademikin Naxçıvana həsr etdiyi kitabı da bu qəbildəndir. Elmi redaktoru və ön söz müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli olan kitab 284 səhifədən ibarətdir. Kitabda müxtəlif alimlərin, o cümlədən naxçıvanlı elm adamlarının əsərlərindən məlumatlar götürülüb və müəllif bu barədə kitabda məlumat verib. Kitab həm tarixi, həm etnoqrafik, həm də mədəniyyət sahəsində məlumatları özündə cəmləşdirib.

Akademik İsmayıl Hacıyev kitabın müəllifinin fikirlərini və salamlarını təqdimat mərasimi iştirakçılarına çatdırıb.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Dünyanın ən qədim şəhərlərindən biri – Naxçıvan tarixinə həsr edilmiş dəyərli əsər" adlı məruzəsində kitabın elmi məziyyətlərindən danışıb və Naxçıvanın tarixi ilə bağlı həqiqətlərin dünyaya çatdırılması baxımından rus dilində çıxan kitabın əhəmiyyətini qeyd edib. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası ərazisində uzun illər ərzində aparılmış tədqiqatlar zamanı əldə edilmiş maddi-mədəniyyət nümunələri də Naxçıvan şəhərinin dünyanın ən qədim şəhərlərindən biri olduğunu sübut edir.

İnstitutun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev və institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyev çıxış edərək Çingiz Qacarın "Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri" adlı kitabının həm də tədqiqata cəlb oluna biləcək zəngin materiallar verdiyini qeyd ediblər. Vurğulanıb ki, müxtəlif dövlət arxivlərindən və şəxsi arxivlərdən əldə edilərək kitabda təqdim edilən fotoşəkillər hər biri özündə bir tarix yaşadır. Təbii ki, müəllifin özünün də qeyd etdiyi kimi, əsər elmi-tədqiqat əsəri xarakterində yox, təbliğat və tanıtım məqsədlidir. Elə bu səbəbdən də kitabda təqdim olunan materiallar gələcəkdə daha geniş elmi tədqiqatlara cəlb edilə bilər.

✍ **Elnur KƏLBİZADƏ**

# Futbol çempionatı davam edir

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi futbol üzrə XV Naxçıvan Muxtar Respublika çempionatında 7-ci turun oyunlarına yekun vurulub.***

"Araz-Naxçıvan" komandası bu turda Naxçıvan Dövlət Universitetinin komandasının qonağı olub. Gərgin keçən görüş "qırmızı-ağlar"ın 2:1 hesablı qələbəsi ilə başa çatıb. İkinci yerin sahibi "DİN-Darıdağ" FK növbəti üç xalını minimal hesablı qələbə sayəsində qazanıb. Səfərdə "Babək" komandasının qonağı olan "DİN-Darıdağ" 1:0 hesablı qələbə ilə meydanı tərk edib. Cari mövsümdə sürpriz nəticələrə imza atan "Kəngərli" komandası bu turda məğlubiyyətlə üzləşib. Doğma arenada "Batabat"ı qəbul edən Kəngərli təmsilçisi meydandan 2:5 hesablı məğlubiyyətlə ayrılıb. Bu, Şahbuz komandasının cari mövsümdə qazandığı 5-ci qələbə olub. Rəqiblərinə nisbətən bir oyun az keçirən "Arpaçay" komandası azarkeşləri önündə "Dübəndi" komandasını sınağa çəkib. Çətinlik çəkmədən 7:2 hesablı qələbəni bayram edən şərurlular turnir cədvəlindəki mövqelərini qoruyublar.

Autsayderlər qrupunda qərarlaşan "Əlincə" isə "Sədərək" komandasını qəbul edib. Gərgin keçən görüş meydan sahiblərinin qələbəsi ilə yekunlaşıb – 2:1. Bu qələbə Culfa təmsilçisinin turnir cədvəlindəki mövqeyini bir qədər yaxşılaşdırıb.

Məhsuldar futbolçular siyahısında isə dəyişiklik yoxdur. "Arpaçay" komandasının futbolçusu Hüseyn Əliyev 10 qolla siyahıya başçılıq edir. "Araz-Naxçıvan"ın hücumçusu Tağı Seyidov və "Batabat" komandasının futbolçusu Samir Kərimov hərəyə 8 qolla 2-ci və 3-cü yerləri bölüşürlər.

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | "Araz-Naxçıvan" | 7 | 7 | 0 | 0 | 23-3 | 21 |
| 2. | "DİN-Darıdağ" FK | 7 | 5 | 0 | 2 | 20-11 | 15 |
| 3. | "Batabat" | 7 | 5 | 0 | 2 | 17-10 | 15 |
| 4. | "Arpaçay" | 6 | 4 | 0 | 2 | 21-13 | 12 |
| 5. | "Kəngərli" | 7 | 3 | 2 | 2 | 15-16 | 11 |
| 6. | "NDU" | 6 | 3 | 0 | 3 | 8-8 | 9 |
| 7. | "Əlincə" | 7 | 2 | 0 | 5 | 9-20 | 6 |
| 8. | "Sədərək" | 7 | 1 | 2 | 4 | 9-12 | 5 |
| 9. | "Babək" | 7 | 0 | 2 | 5 | 3-15 | 2 |
| 10. | "Dübəndi" | 7 | 0 | 2 | 5 | 7-22 | 2 |

**Qeyd:** *S – sıra, O – oyun, Q – qələbə, H – heç-heçə, M – məğlubiyyət, T/F – top fərqi, X – xal.*

✍ **Ceyhun MƏMMƏDOV**

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Hüseynov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1050. Sifariş № 866**